


# "BEŞDƏN BİRİ" kampaniyasının alətlər toplusu – Təlimatlar

"BEŞDƏN BİRİ" kampaniyası üçün bu alətlər toplusuna yerli və regional səviyyələrdə seçkili nümayəndələrin, yerli və regional hakimiyyət orqanlarının assosiasiyalarının və digər təşkilatların **Avropa Şurasının "BEŞDƏN BİRİ" kampaniyasına** və **Şəhər və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktına** qoşulmalarına yardım etməyə yönələn müxtəlif alətlər daxildir.

## Poster

"BEŞDƏN BİRİ" kampaniyasında və *Şəhər və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktında* iştirak edənlər nümunəvi (model) poster yaymağa dəvət olunurlar, onlar həmin posterin üzərində dördbucaqlı mötərizələrin içərisində ([X] və [Logo]) öz müvafiq məlumatlarını (saytlarının ünvanını, əlaqə məlumatlarını, emblemlərini (loqo) və s.) qoymaqla posteri fərdiləşdirə bilərlər.

## Məlumatlandırıcı sənədlər

- "BEŞDƏN BİRİ" kampaniyasını və *Şəhər və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktını* təqdim edən vərəqə (A4 formatında);
- *Şəhər və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktının tam mətnini* təqdim edən broşür (A5 formatında);
- *Uşaqların seksual istismardan və nalayiq seksual hərəkətlərdən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasını* (Lansarote Konvensiyasını) təqdim edən broşür (A4 formatında);
- *"Regional qanunvericilik və uşaqlar barəsində seksual istismara və nalayiq seksual hərəkətlərə qarşı mübarizə tədbirləri"* (Konqressin 2012-ci ildə qəbul edilmiş qətnamə və tövsiyəsi).

## PDF

*Şəhər və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktını* təşviq etməyə yönələn vasitələri bu kampaniyanın alətlər toplusuna əlavə olunmuş QR-Code kartdan kompütere PDF fayllarında professional formatda və müxtəlif dillərdə yükləmək olar, yaxud da bu saytdan yükləmək olar: www.coe.int/congress-oneinfive.